Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Milli ruh və mənəviyyatımıza işıq salan Abdulla Şaiq

**Abdulla Şaiqin 140 illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Milli ruh və mənəviyyatımıza işıq salan Abdulla Şaiq:** Abdulla Şaiqin 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait/ tərt. ed.Ruhiyyə Məmmədli; ix. red və burax. məsul Şəhla Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2021. -52 s

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Giriş

Azərbaycan ədəbiyyatı tarixində Abdulla Şaiq şair, yazıçı, dramaturq, ədəbiyyatşünas, görkəmli maarif və mədəniyyət xadimi kimi məşhurdur. Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından biri, milli uşaq teatrının banisidir. Ömrünü xalqın maariflənməsinə həsr edən yazıçı zəngin bir yaradıcılıq yolu keçmişdir. Şair ən çox uşaqlar və gənclər üçün yazıb-yaratmışdır. Bu əsərlər məktəblərdə indi də tədris edilir. Onun uşaq və gənclər üçün yazdığı əsərlər gözəl lirik şeirlərdən, mənzum və mənsur hekayələrdən, nağıllardan, təmsillərdən və kiçik pyeslərdən ibarətdir. Kiçikyaşlı uşaqlar üçün yazdığı "Quzu", "Xoruz", "Keçi","Uşaq və dovşan" və s. şeirləri bu gün də dillər əzbəridir. "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir" kimi mənzum hekayə və nağılları milli uşaq ədəbiyyatımızın qızıl fonduna daxildir. A.Şaiq XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsində ardıcıl və məqsədyönlü şəkildə çalışmış, öz fəaliyyəti ilə bu sahədə bir məktəb yaratmışdır. Azərbaycan uşaq şeiri və nəsri, dramaturgiyası bütöv və müstəqil bir klassik məktəb səviyyəsində məhz onun yaradıcılığında kamala çatmışdır. 2021 - ci ildə Abdulla Şaiqin 140 illik yubileyi pandemiya dövrünə təsadüf etdiyi üçün nəzərdə tutulan tədbirlər respublikamızın bir çox mədəniyyət ocaqlarında, məktəblərdə uşaq kitabxanalarında onlayn şəkildə qeyd olunur. Yubiley münasibətilə tərtib olunan "**Milli ruh və mənəviyyatımıza işıq salan Abdulla Şaiq"** adlı metodik vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulmuşdur.

## Həyat və yaradıcılığı

XX əsr Azərbaycan ədəbiyyatının və maarifinin görkəmli nümayəndələrindən biri olan Abdulla Şaiq 1881ci-ildə Tiflisdə ruhani ailəsində dünyaya gəlib. 1888-ci ildə Abdulla Şaiq altısinifli şəhər müsəlman məktəbində ilk təhsilini alır. İlk təhsilini aldıqdan sonra Abdulla Talıbzadə 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Xorasana gələrək orada dövrünün mütərəqqi ziyalısı Yusif Ziyanın məktəbində təhsilini davam etdirir. On doqquz yaşlı Abdulla yeddi ildə Xorasanda mükəmməl təhsil alır, tarix, məntiq, psixologiya elmlərini, Şərq, Azərbaycan, Rus ədəbiyyatını öyrənir. 1900-cü ildə o, Tiflisə qayıdaraq bir müddət orda qalır. 1901- ci ildə Bakıya gəlir. Görkəmli ictimai xadim Nəriman Nərimanov və Abbas bəy Minasazovun qayğısı və köməyi ilə 25 aprel 1902-ci ildə Bakıdakı Aleksandriyski gimnaziyada imtahan verərək müəllimlik şəhadətnaməsin alır. Bakıda 5-ci şəhər məktəbində pedoqoji fəaliyyətə başlayan Abdulla Şaiq 1903-cü ildən Sabunçudakı altısinifli məktəbdə ana dili və şəriətdən dərs deyir. Bu illərdə o, görkəmli ədib və maarif xadimi Ə.Haqverdiyev, H.Zərdabi, N.Vəzirov, S.S.Axundov, M.Ə.Sabir, M.Hadi, A.Səhhət və H.Cavid və başqaları ilə yaxından tanış olur və bu şəxsiyyətlər şairin milli-mənəvi inkişafında mühüm rol oynayır. 1906-cı ilin avqustunda Bakıda birinci müəllimlər qurultayı çağrılır. Qurultayın təşkilində Şaiqin böyük xidmətləri olur. Gənc müəllim ana dilinin və ədəbiyyatın tədrisinə dair təşəbbüslə çıxış edir. Qurultay H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya seçir və Azərbaycan dilində müvafiq proqram hazırlamağı onlara tapşırır. Birinci müəllimlər qurultayından heç bir il keçməmiş neçə-neçə yeni dərsliklər yaranır. “Əlifba”, “Uşaq

çeşməyi" (1906), "Uşaq gözlüyü" (1909), "Gülzar" (1912) və s. bu kimi dərsliklərdə onun öz əsərləri və dünya ədəbiyyatından nümunələr çap olunur. On altı səhifəlik "Uşaq çeşməyi" kitabı kiçik yaşlı uşaqların bilik səviyyəsinə uyğun hazırlanır. Bundan sonra o, müxtəlif illərdə bir-birinin ardınca "Milli qiraət", "Türk çələngi", "Ədəbiyyat dərsləri" (1919), "Türk ədəbiyyatı" (1920) adlı dərsliklər və proqramlar hazırlayır. Bu dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilir. Keçən əsrin əvvələrindən Abdulla Şaiq ədəbi-pedaqoji mühitdə adlı-sanlı yazıçı, şair və pedaqoq kimi tanınır. Xalqın, vətənin gələcəyi naminə var-gücü ilə çalışır. Həm sənət aləmində, həm də maarif yönümündə ən qabaqcıl şəxsiyyət kimi ziyalılarla ön cərgədə gedir. O, həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürür. Abdulla Şaiq eyni zamanda ədəbiyyatımızı həvəslə tədqiq və təbliğ edir. Xaqani, Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid kimi sənətkarların yaradıcılıqlarının tədqiqində bir ədəbiyyatşünas alim kimi onun xidmətləri böyükdür. Abdulla Şaiq yaradıcılığında ilk mətbu əsər "Laylay" adlı uşaq şeiridir və o, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə milli uşaq poeziyamızın incilərini yaradır. Onun bir sıra şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görür. Bu illərdə o, "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilrək, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olur. Xalq ədəbiyyatının gözəl bilicisi olan, onu hələ uşaq ikən Sarvanda əmiləri Əlidən və Məmməddən öyrənən, sonralar toplayıb araşdıran Abdulla Şaiq bu nümunələr əsasında "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazır.

Onun “Ədhəm”, “Tapdıq dədə”, “Qoçpolad” kimi poemalarında da milli folklorun təsiri görünür. Bütövlükdə Şaiqin poeziyasında romantik vüsətlə real həyat, xəyalla varlıq, keçmişlə gələcək, tarixlə müasirlik qovuşur. Onun poeziyası qəhrəmanlıq, xəlqilik, vətənpərvərlik və gözəllik poeziyasıdır, uşaq şeirləri elə o zamandan dərslik, proqram və oxu kitablarının bəzəyidir. Abdulla Şaiq həm də 1910-cu ildə yazdığı “Gözəl bahar” pyesi ilə milli uşaq teatrının özülünü qoyur və Azərbaycan uşaq dramaturgiyasının banisi kimi tanınır. Romantik ruhlu şair inqilabi hadisələrdən coşur, “Hürriyyət pərisi”, “Niyə uçdu”, “Bir quş”, “XX əsrə xitab”, “Şikayətlərim”, “Zamanın inqilabçılarına” kimi şeirlər yazır. Nəsr yaradıcılığına 1905-ci ildə romantik “İki müztərib və ya əzab və vicdan"yarımçıq romanı ilə başlamış ədib sonralar “Məktub yetişmədi”, “Köç”, “Daşqın”, “İntiharmı, yaşamaqmı”, “Göbələk”, “İblisin huzurunda”, “Dursun”, “Əsrimizin qəhrəmanlar”ı kimi bir çox dəyərli hekayə, povest və romanlar yazmışdır. O, bu əsərlərdə bacarıqlı sənət ustası kimi çıxış etmişdir. “Köç” və “Məktub yetişmədi” hekayələri və “Əsrimizin qəhrəmanları” romanı ilk milli nəsr nümunələri kimi dəyərləndirilir. “Həpimiz bir günəşin zərrəsiyiz” əsəri şairin o dövrkü dünyagörüşünü, şər qüvvələrin xalqlar arasında nifaq salmasını, savaş törətdiyini, bəşərin sabahını, insanların taleyini göstərən ən gözəl romantik şeirlərindəndir. Azərbaycan Demokratik Respublikasının yaranmasını böyük sevinclə qarşılayan Abdulla Şaiqi M.Ə.Rəsulzadə “milli istiqlalın sevincini ilk duyanlar" adlandırır. Azərbaycan Demokratik Respublikası dövründə Abdulla Şaiq poeziya yönümündə daha həvəslə çalışır, Əhməd Cavad, Əmin Abid, Ümgülsüm, Əli Yusif, Əli Şövqi kimi gənc istiqlal şairlərini də ruhlandırırdı. Onun bu illərdə qələmə aldığı “Yeni ay doğarkən”, “Türk ədəmi mərkəziyyət Müsavata ithaf”, “Arazdan Turana” kimi şeirləri ədəbi mühitdə

dəyərləndirilən poeziya nümunələrindəndir. Onun “Vətənin yanıq səsi” şerində ulu oğuzların hünəri, Altay türkləri, Elxan və Altun ordusunun gücü, “İki mücahid” və yaxud “Atı yaralı əsgər” şeirində cahan savaşının yaraları, erməni daşnaklarının Azərbaycan torpaqlarındakı vəhşiliyi, Qarabağdakı fitnə-fəsadları ön plana çəkir. “Ülkərin nuru ilə ziyalanan”, “Uçan nəğməsi ilə havalanan”, “Xoş kölgəsində səfalanan” istiqlal şairinin cümhuriyyət sevinci ürəklərə sərinlik gətirir. Ədib ADR dövründə maarif və məktəb yönümündəki işini daha da canlandırır, bir neçə məktəbi milliləşdirir, rus məktəblərində Azərbaycan türkü sinifləri yaradır. Dövlətin yaratdığı program və dərsliklər hazırlayan komissiyanın üzvü kimi çalışır. 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması ilə bağlı “Tələbə həyatı” pyesini yazır, yarımçıq “Əsrimizin qəhrəmanları” romanını tamamlayır. Bu əsərlərdə müəllif vətən, millət, müstəqillik arzularını dilə gətirir, milli dövlətçiliyimiz üçün yeni milli kadrlar hazırlanması məsələsini önə çəkir. 1920-ci il aprelin 28-də rus ordusunun (XI Qızıl Ordu) Azərbaycana daxil olması, bolşeviklərin hakimiyyəti ələ almasına baxmayaraq, Abdulla Şaiq xalqın gələcəyi naminə öz ədəbi-pedaqoji fəaliyyətini davam etdirir. O, pedaqoji kurslarda,texnikumlarda və başqa məktəblərdə dərs deyir, mədəni-maarif işlərinə yardım edir,bədii yaradıcılıqla məşğul olur. Çalışdığı gimnaziya ilk öncə “Nümunə məktəbi” adlandırılır. Bu məktəbdə bütün dərslər Azərbaycan-Türk dilində aparılır. Təzə açılan siniflərdə əsas müəllimlər A.Şaiq, Q.Rəşad, C.Cəbrayılbəyli, S.Quliyev və başqa ziyalılar olur. Lakin yeni yaranmış məktəb bir çox problemlərlə üzləşir. Nə dərslik, nə də proqram tapılır, müəllim kadrları çatışmır. Seçilmiş heyət Abdulla Şaiqin rəhbərliyi ilə şagirdlər üçün proqram və dərslik hazırlamağa başlayır. 1923- cü ildə “Nümunə məktəbi”nin ilk buraxılışı olur. Həmin buraxılış gecəsində tələbə və müəllimlərin arzusunu nəzərə

alan Maarif Komissarlığı və Baş Tərbiyə İctimaiyyə Dairəsi bir çox dolanbaclı yollardan keçib fəaliyyətini müvəffəqiyyətlə davam etdirən məktəbi "Şaiq Nümunə məktəbi" adlandırmağı qərara alır. 1918-ci ildə yaradılmış məktəb 10 il fəaliyyət göstərmişdir. Bu illər ərzində təlim-tərbiyə işləri ilə yanaşı bədii yaradıcılıqla da məşğul olan Abdulla Şaiqin "Vəzifə", "Özü bilsin, mənə nə?", "Anabacı", "Əsəbi adam" kimi silsilə hekayələri, "Araz"" inqilabi-tarixi mövzulu romanı, elm, maarif və mədəniyyət haqqında bir sıra məqalələri, "Tənqid-Təbliğ" teatrı üçün yazdığı əsərlər ədəbi mühitdə maraqla qarşılanmışdır. Azərbaycan Gənc Tamaşaçılar Teatrının, Uşaq və Gənclər nəşriyyatının işi də birbaşa Abdulla Şaiqin adı ilə bağlıdır. Uzun müddət bu teatrda çalışan ədib "Xasay", "Eloğlu", "Vətən", "Fitnə", "Qaraca qız" kimi çeşidli pyeslər yazır. "Fitnə" və "Nüşabə" əsərləri Nizami süjetləri əsasında yaranan maraqlı sənət əsərləridir. Ədib bu illərdə də uşaqlar üçün gözəl əsərlər yazır, başqa sənət dostlarını da bu işə cəlb edirdi. Onun "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də öz dəyərini saxlayır. Gözəl bahar" A.Şaiqin uşaqlar üçün yazdığı ilk pyesdir və bu əsərlə o, Azərbaycanda uşaq dramaturgiyasının əsasını qoymuşdur. Əsərdə Baharla qışın timsalında həyat, ümid və xoşbəxtliklə zülm və əsarət törədən qüvvələr arasında gedən kəskin mübarizə təsvir edilir. Nəhayət, Baharın "ordu"suna daxil olan Yer, Su, Qaranquş, Torpaq, Çiçəklər və s. qışın "ordusu" Boran, Qar və sairin üzərində qələbə çalaraq şən və xoşbəxt həyatı bərqərar edirlər… A.Şaiqin ikinci qrupa – yeniyetmə və gənclər üçün nəzərdə tutulan pyesləri sırasına "Bir saat xəlifəlik", "Yazıya pozu yoxdur", "Qafqaz çiçəyi", "İldırım", "El oğlu", "Vətən", "Ana", "Xasay", "Fitnə", "Qaraca qız", "Nüşabə" əsərləri daxildir. Həmin əsərlərin əksəriyyətini o, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi-pedaqoji

şöbəsinin müdiri işlədiyi dövrdə – 1937-ci ildən sonra qələmə almışdır. Bu peşələrdən "Gözəl bahar", "Danışan kukla", "Bir saat xəlifəlik", "El oğlu", "Vətən" və başqaları folklor motivləri əsasında, "Qafqaz çiçəyi", "İldırım", "Fitnə", "Qaraca qız", "Aldadılmış ulduzlar", "Nüşabə" tarixi mövzuda və klassik yazılı ədəbiyyatdan istifadə yolu ilə, "Xasay", "Vəzifə" isə müasir həyatdan götürülərək yazılmışdır. Ədibin uşaq pyeslərinin əksəriyyəti onun öz sağlığında və sonrakı dövrdə uğurla tamaşaya qoyulmuşdur. Həmin əsərlər uşaqların və yeniyetmə gənclərin dünya görüşlərinin, bədii-estetik zövqlərinin püxtələşməsində, onlarda əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində böyük rol oynamış və öz aktuallıqlarını bu gün də saxlamaqdadırlar. Yaradıcılığının çoxşaxəliliyi onun əsərlərinin ideya-bədii keyfiyyətlərinə səmərəli təsir göstərmiş, bütövlükdə A.Şaiq yaradıcılığının yüksək sənət nümunəsi kimi ümumxalq məhəbbəti qazanıb əbədiyaşarlığına səbəb olmuşdur. Bu işdə ədibin ailəsi, böyüyüb boya-başa çatdığı elitar ziyalı mühitinin də rolu danılmazdır. Yazıçının oğlu akademik Kamal Talıbzadənin yazdığına görə, onların soyadları XVII əsrdən məlumdur. Həmin əsrdə ulu babaları Molla Talıb qardaşları ilə bərabər Şəmsəddindən Sarvana köçərək burada məskunlaşmışlar. Hazırda Gürcüstan Respublikasının Marneuli adlanan həmin bölgəsində bu nəslin törəmələri yaşamaqdadırlar. Alim, ədəbiyyatşünas, folklorçu kimi də tanınan Abdulla Şaiq klassik ədəbiyyat yönümündə araşdırmalar aparır. Onun Nizami, Füzuli, Nəsimi, Vaqif, M.F.Axundov, Mirzə Cəlil, M.Cavid, M.Hadi kimi sənətçilər haqqındakı fikirləri bu gün də dəyərlidir. Şairin Şərq ədəbiyyatı məsələləri, sufizm, təsəvvüf, hürufilik, eləcə də çeşidli ədəbi cərəyan və metod haqqındakı araşdırma və axtarışları da maraqlıdır. Milli folklorumuzu ilk dəfə toplayıb öyrənənlərdən biri də elə Abdulla Şaiqdir. Onun çağdaş həyata, elm və dil məsələlərinə aid yazıları isə xüsusi maraq doğurur. Əsl

beynəlmiləlçi və humanist bir sənətçi olan, həmişə "Həpimiz bir günəşin zərrəsiyiz" deyən Abdulla Şaiq bütün əsərlərində bəşəri problemlərə toxunur, xalqları dostluğa, əmin-amanlığa çağırır. O, türk, rus, fars, tatar, litva, özbək, gürcü, tacik və başqa millətlərin ziyalıları ilə dostluq edir, dünya xalqları ədəbiyyatınlarının incilərini, Firdovsinin "Şahnamə"sindən bir parça, Şekspirin "Maqbet", C.Sviftin "Qulliverin səyahəti", Puşkin, Lermontov, Krılov, Qorki, Nekrasov və başqa yazıçıların əsərlərini dilimizə çevirmişdir. Abdulla Şaiqin 20-30-cu illərdə dilimizin fonetika, morfologiya, sintaksis və üslubiyyat məsələlərinə dair yazdığı elmi məqalə və əsərlərin bir çoxu indi də öz əhəmiyyətini saxlayır. Şaiq elmi-pedaqoji fəaliyyəti ilə ədəbi yaradıcılığını paralel inkişaf etdirmişdir. Əslində, bu iki sahə onun fəaliyyətini tamamlamış, elmə, maarifə çağırış, gənc nəslin taleyi, tərbiyəsi, xalqın, vətənin gələcəyi kimi məsələlər onun bədii əsərlərinin əsas mövzusu olmuşdur. Müxtəlif illərdə yazdığı şeirlər, hekayələr, povestlər, romanlar, dram əsərləri Şaiq cəsarətinin, Şaiq dünyagörüşündəki qabaqcıl meyllərin nümayişidir.

Abdulla Şaiq 1959-cu il iyulun 24-də Bakıda vəfat etmişdir. Məlumatı B.Vahabzadənin misraları ilə bitirmək yerinə düşərdi:

*Yerə kök atmayan qalxıb ucalmaz,*
*Sözlərin gücünü torpaqdan aldı.*
*Ulduzlar batanda izi də qalmaz,*
*Sən batdın, Şəfəqin dünyada qaldı.*
*Keçər qərinələr, Ötər neçə il,*
*Həmişə yaz olar sənət bağında,*
*Sözlərin gəzəcək nəsilbənəsil*
*Körpə balaların gül dodağında*

## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Abdulla Şaiq haqqında

Abdulla Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qismi Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olmuşdur. Ali və orta təhsil məktəbləri üçün onlarla dərsliyin müəllifi olmuş Abdulla Şaiqin uzunmüddətli pedaqoji fəaliyyəti milli təhsilimizin yeni mərhələyə yüksəlişində mühüm rol oynamışdır.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Bu qism sadə dildə yazılmış və mənası öz məişətimizdən götürülmüş əsərlər yenicə başlayır meydana gəlməyə və bu yolda sizin xidmətinizin qədrü-qiyməti yoxdur... Xırdaca uşaqlar üçün yazılan nağıl, hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər məzmunda olan mətləblər artıq dərəcədə hasilə gəlib, yaxşı meyvələr gətirər.

**Firidun bəy Köçərli,**
*Azərbaycan maarifçisi*

Abdulla Şaiqin insanpərvərlik təbliğ edən məhşur şeirlərindən biri "Həpimiz bir günəşin zərrəsiyiz" sərlövhəli, bir qədər mahnı ruhunda, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış şeirdir. 1910-cu ildə yazılmış bu əsərdə insanlığa səmimi bir xitab vardır. Şaiqin fikrincə, bəşər əslən qardaş yaranmışdır. İnsanlar hamısı bir günəşin şüasından əmələ gəlmiş, bir ananın, təbiətin qoynunda böyümüşlər.

**Mir Cəlal,**
*yazıçı, professor*

Doğma vətən torpağına, zəhmətkeş insanlara, Azərbaycanın zəngin təbiətinə sonsuz məhəbbət aşılayan Abdulla Şaiqin uşaq şeirləri qəlbimizdəki Şaiq guşəsinin heç vaxt unudulmaz ən cazibədar xatirələrindən biridir. Zaman keçdikcə bu guşə təzə-təzə lirik şeir, hekayə, poema, povest, roman və pyeslərlə daha da zənginləşmiş, qəlb sahiblərini də uca bəşəri ideallar, zərif insani hisslər və yüksək duyğularla zənginləşdirmişdir.

**Bəkir Nəbiyev,**
*akademik*

Abdulla Şaiqin nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular,xehirxah arzular baş qaldırmışdır.

**İlyas Əfəndiyev,**
*xalq yazıçısı*

Abdulla Şaiq mənəviyyatı pak, daxili təmiz, rəftarı gözəl bir insan kimi xalqımızın qəlbində yaşayır, yaşayacaq da!

**Əfrasiyab Bədəlbəyli,**
*xalq artisti*

Azərbaycanda Şaiq qədər çoxlu ədəbiyyat dərsliyi tərtib edən ikinci bir müəllif yoxdur. O, müxtəlif zamanlarda on bir ədəbiyyat dərsliyi tərtib etmişdir. Məktəblərimizdə ana dili və ədəbiyyat uzun müddət ən əsas Şaiqin dərslikləri üzrə öyrənilmişdir. Bu dərslikləri ədib sadəcə olaraq tərtib etmirdi, onlarda gedən hekayələrin və şeirlərin çoxunu özü yazırdı.

**Abbas Zamanov,**
*professor*

Abdulla Şaiq uşaqlar üçün müntəzəm bədii əsərlər yazan ilk qoca sənətkardır. Bir uşaq yazıçısı kimi Şaiq müəllimliyə borcludur.

Onu bu şərəfli yola sövq edən balalarımızın ana dilində bədii əsərlərə böyük ehtiyac hiss etməsi olmuşdur. Abdulla Şaiq bütün bir seriya təşkil edən əsərləri ilə məktəb kitabxanası yaratmışdır. "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir", "Murad", "Şələquyruq" və bir çox başqaları gənclərimizə ilk dəfə bədii ədəbiyyatı dərk etdirmiş, bədii dili sevdirmişdilər.

**Məmməd Arif,**
*professor*

Abdulla Şaiqin üslubu vahid bir istiqamətdə inkişaf etmir; o həm realistdir, həm romantik; onun sənətkar xəyalı gah soyuq və dumanlı fəzalara dikilib qalır, gah da konkret tarixi şəraitlə, canlı real varlıqla bağlanır.

**Əli Sultanlı,**
*ədəbiyyatşünas, alim*

Abdulla Şaiq Azərbaycanda uşaq ədəbiyyatının əsasını qoymuşdur. O, uşaq əsərləri ilə yeni nəsillərə dil açmağı, göz açmağı, həyatı, insanları tanımağı, sevməyi öyrədirdi...

**Mikayıl Rzaquluzadə,**
*nasir-şair*

Abdulla Şaiqdən tək bir yazıçı, pedaqoq, maarif xadimi, yalnız tənqidçi, ədəbiyyatşünas və dilşünas kimi, yaxud dərsliklər müəllifi, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik vətəndaş və şəxsiyyət kimi ayrı-ayrılıqda danışmaq onun haqqında tam təsəvvür oyada bilməz, buna ancaq ədibin çoxşaxəli fəaliyyətini tam halda əhatə etmək və mənalaşdırmaqla nail olmaq olar.

**Kamal Talıbzadə,**
*akademik*

Abdulla Şaiq lirik nəsrimizin təməl daşını qoymuşdur.

**Mehdi Hüseyn,**

*yazıçı*

Yığcam süjet, doğru və dəqiq bədii təsvirlər, hadisənin təbii inkişafı, mənalı dialoq və lirik əhvali-ruhiyyə onun hekayələrinin gözəl xüsusiyyətləridir

**Mirzə İbrahimov,**

*xalq yazıçısı*

## Yubiley tədbirlərinin keçirilməsi

İllərin bir-birini əvəz etməsinə baxmayaraq Abdulla Şaiq yaradıcılığı Azərbaycan ədəbiyyattında tutduğu mövqeyini heç bir zaman itirmir və itirməyəcək. Onun əsərləri istər böyüklərin, istərsə də azyaşlı oxucuların hər zaman ən çox müraciət etdiyi və sevərək oxuduğu əsərlər olaraq qalacaq. Çünki şairin əsərlərinin hər bir misrasında, sətrində səmimiyyət, vətənpərvərlik, sadiqlik, dostluq kimi ülvi hisslər yatmaqdadır. Məhz bu keyfiyyətlər də Azərbaycan oxucusu üçün ən böyük mirasdır. Hamımıza məlumdur ki, Abdulla Şaiq Azərbaycan milli uşaq ədəbiyyatının incilərini yaratmışdır. Bu il xalqımızın sevimlisi, körpələrin incə qəlblərinə yol tapan, uşaq və gənclərin onun şeirlərini sevə-sevə öyrəndikləri görkəmli şair-dramaturq Abdulla Şaiqin anadan olmasının 140 illik yubileyidir. Abdulla Şaiq Talıbzadə Azərbaycan ictimai ədəbi və mədəni fikri tarixində görkəmli romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas-alim, tərcüməçi və müəllim kimi xüsusi yer tutur. Bir çox təhsil ocaqlarında, eləcə də uşaq kitabxanalarda pandemiya ilə əlaqədar şairimizin yaradıcılığı ilə bağlı virtual şəkildə yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. İndi isə gəlin Abdulla Şaiqin yubileyi münasibətilə uşaq kitabxanalarında təşkil olunacaq **virtual sərgilər** haqqında danışaq. Virtual kitab sərgisi Onlayn platformada şagirdlərin

maraqlarına uyğun olaraq virtual rejimdə bütün respublika kitabxanalarının və kitabxanaçılarının ixtiyarına verilir. Müasir dövrün tələbi olan virtual kitab sərgiləri hazırlamaq ən təsirli vasitələrdən biri hesab olunur. Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək tövsiyə olunur. Bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır. Kitabxanalarda Abdulla Şaiqdən bəhs edən ədəbiyyatların təbliği istiqamətində təşkil oluna biləcək virtual sərgilər ***"Milli uşaq ədəbiyyatının banisi", "Hamımız bir günəşin zərrəsiyik", "Körpələrin böyük məhəbbəti", "Sən bu xalqın sevincisən...", "Ey mehriban uşaqlar, Siz yaşayın bəxtiyar!", "Milli uşaq ədəbiyyatımızı bizə sevdirən yazıçı", , "Abdulla Şaiqə dərin məhəbbətlə"*** və s. başlıqlar altında nümayiş oluna bilər. Virtual sərgilər yaradılma texnologiyasına görə müxtəlifdir: slaydlarla videorejimdə, dok., pdf formatlarında və avtomatlaşdırılmış kitabxana sistemində, sadə Pover Point proqramından istifadə etməklə, HTML formatında saytda yerləşdirməklə hazırlanır. Nümayiş etdirilən materialların təqdim edilməsi formasına görə virtual sərgilər qısa formatda - yalnız kitabın üz qabığı və biblioqrafik təsviri, standart formatda - kitabın üz qabığı, biblioqrafik məlumatlar, məzmunu, annotasiyası, geniş formatda - standart formata əlavə olaraq təqdim edilən kitabdan qısa fraqment, kitabın onlayn versiyasına hiperisnad (əgər varsa linkin yerləşdirilməsi), mənbənin özündə verilən müəllif haqqında əlavə məlumat, audio və video materiallarla müşayiət olunan biblioqrafik təsvir təqdim edilə bilər. **Virtual kitab sərgisi** hazırlayan zaman kitablar tam mətnləri və üz qabığı ilə birlikdə əlavə oluna bilər. Nümunə: Slayd 1: Sərginin başlığı; Hamımız bir günəşin zərrəsiyik" virtual kitab sərgisi Slayd 2: Kitablar; 3. Haqqında yazılmış şeirlər:

*Yarat, bir də yarat, əsərlərindən*
*Gəlsin gül ətri də, maşın səsi də.*
*Şeir olmalıdır, şeir – dedim mən,*
*Şairin son nitqi, son nəfəsi də.*
*Sönməz sevən qəlbin alovu, közü*
*Dumanlı, çiskinli dağ başında da.*
*Əsl sənətkarın tükənməz sözü*
*Əlli yaşında da, yüz yaşında da.*

***Hüseyn Arif***

## Sərgi




































Hazırlanan sərgini həm kitabxananın saytı, həm də sosial şəbəkələrdə geniş istifadəçi ictimaiyyətinə təqdim etmək tövsiyə olunur. Respublika Uşaq Kitabxanası, şair, yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünas, tərcüməçi, Azərbaycan uşaq ədəbiyyatının banisi Abdulla Şaiqin 140 illik yubileyinə həsr olunmuş virtual sərgini istifadəçilərin ixtiyarına verdi. Virtual sərgidə yer alan kitablar 1927-2018-ci illəri əhatə edir. Sərgiyə ümümilikdə tam mətnli 41 kitab yerləşdirilib. Onlardan 20-si 1927-1994-cü illəri əhatə edən kitabxananın "Qızıl fond"unda qorunub saxlanılan kitablardır. Qızıl fondan yerləşdirilmiş kitablar arasında Tülkü həccə gedir- 1927; Gözəl Bahar-1940; Nağıllar-1945 və s. kitablarda yer alır. Eyni zamanda virtual sərgiyə rus dilində 4, Рассказы-1991; Вот Мы Какие-1984; Избранное-1959; Письмо не дошло-1984 kitablarda əlavə olunub.İstifadəçilər, aşağıdakı link vasitəsi ilə virtual sərgi ilə tanış ola bilərlər.

http://clb.az/abdulla-aiq_d3088.html

**Onlayn müsabiqələr:** COVİD-19 pandemiyasının yayılması səbəbindən ölkədə tətbiq edilən xüsusi karantin rejimi həyatın bütün sahələrində fövqaladə şəraitə uyğun, çevik davranmağı tələb edir. Bununla əlaqədar xüsusi karantin dövründə kitabxanalar müxtəlif onlayn layihələr və müsabiqələr təşkil edə bilərlər. Bütün bunları nəzərə alaraq uşaq və yeniyetmələrdə mütaliə mədəniyyətinin formalaşdırması, həmçinin onların intellektual səviyyələrinin yüksəldilməsi məqsədi ilə Abdulla Şaiqin yubileyi ərəfəsində həyata keçirilən digər layihələrdən biri də internet vasitəsilə onlayn müsabiqələrin təşkili hesab oluna bilər. Metodist məktəbyaşlı uşaqlar arasında Abdulla Şaiqin qələmə aldığı uşaq ədəbiyyatının təbliği və öyrənilməsi istiqamətində maarifləndirici mövzuda **rəsm, foto, əl işləri, inşa yazı, oxu müsabiqələri** keçirə bilər. Müsabiqələrin keçirilməsində əsas məqsəd uşaq və gənclərin, eləcə də geniş əhali kütləsinin bu sahədə ədibin yaradıcılığı mövzusunda

maarifləndirilməsini təmin etməklə yanaşı, onların uşaq ədəbiyyatına olan marağını artırmaqdır. **“Ədəbiyyatımızda Abdulla Şaiq izi”** adlanan **inşa müsabiqələri** onlayn şəkildə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilə bilər. Müsabiqə zamanı kitabxanaçılar təhsil müəssisələri ilə birlikdə müsabiqənin mövzusunu, daha sonra isə müsabiqədə iştirak edəcək şagirdlərin sayını müəyyənləşdirməlidirlər. Müsabiqəyə bir qayda olaraq əvvəlcədən müəyyən olunmuş mövzuya uyğun inşalar təqdim oluna bilər. Müsabiqəyə təqdim olunan inşaların məktəb müəllimləri və metodistlərdən yaradılmış münsiflər heyəti tərəfindən müəyyən olunmuş meyarlar əsasında yoxlanılması tövsiyə olunur. Bu zaman mövzunun tam əhatə olunması, tərbiyəvi əhəmiyyəti, mövzuya şəxsi münasibət və s. xüsusiyyətlər nəzərə alınmalıdır. Müsabiqələri təşkil edən zaman əvvəlcə müsabiqənin keçirilməsi haqqında sosial şəbəkələrdə, kitabxananın saytında və yerli mətbuatda elan yerləşdirilməli, müsabiqənin şərtləri, keçiriləcəyi tarix və ünvan göstərilməlidir.

**Nümunə:** “Milli ruh və mənəviyyatımıza işıq salan əbədiyaşar sənətkar: ” İnşa müsabiqəsi Elan ________ rayon (şəhər) F.Köçərli adına Respublika Uşaq Kitabxanası ________ rayon (şəhər) __ saylı orta məktəblə birgə məktəbin 5-9-cu sinif şagirdləri arasında “Ədəbiyyatımızda Abdulla Şaiq izi” mövzusunda 2021-ci il 24 fevral tarixindən 10 mart tarixinədək davam edəcək inşa müsabiqəsi elan edir. Müsabiqənin tələb və şərtləri: İnşa yazısı onun məzmununu əks etdirən adı daşımalı, mövzu müfəssəl əhatə olunmalıdır; İnşa özündə Abdulla Şaiqin Azərbaycan ədəbiyyatındakı əvəzolunmaz yeri haqqında məlumatları əks etdirməlidir; İnşa yazısının həcmi 5 səhifədən artıq olmamalıdır; İnşa yazısı Azərbaycan, rus, ingilis dillərdə yazıla bilər; İnşanın titul vərəqində (və ya sonunda) müsabiqədə iştirak edənin soyadı, adı, atasının adı, təhsil aldığı orta məktəbin nömrəsi, sinfi və əlaqə

telefonları qeyd olunmalıdır; Müsabiqədə iştirak etmək üçün kitabxananın e-mail E-mail: info@clb.az______ ünvanında onlayn qeydiyyatdan keçmək lazımdır. Müsabiqənin qalibləri münsiflər heyəti tərəfindən seçilərək qiymətləndiriləcəkdir. Müsabiqədə 1-ci, 2-ci, 3-cü yerləri tutmuş qaliblər diplom və mükafatlarla, müsabiqədə fərqlənən şagirdlər isə həvəsləndirici hədiyyələr ilə mükafatlandırılacaq.

Abdulla Şaiq yaradıcılığında əxlaqi keyfiyyətlərin təbliği mövzusunda uşaqlarla **"Milli uşaq ədəbiyyatının incilərini yaradan sənətkar"** adlı **virtual söhbət**: Bu tədbirin təşkilində də bütün təşkilati işlər birbaşa metodistə həvalə olunur. Abdulla Şaiqin yaradıcılığı ilə bağlı müzakirə olunacaq məsələlər öncədən müəyyənləşdirilməli, qonaqlar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalıdır. Söhbətin planını təqdim edirik:

**Metodist:** Abdulla Şaiq xalqa canı, qanı, ruhu ilə bağlı olan və vətəninə sonsuz məhəbbətinə görə xalq arasında böyük nüfuz qazanan söz ustalarından idi. O, uşaq yazıçısı kimi Azərbaycan ədəbiyyatında şərəfli yer tutur. 1906-cı ildən başlayaraq ömrünün son günlərinə qədər uşaqlar üçün bir-birindən gözəl, yüksək tərbiyəvi əhəmiyyəti olan və heç bir zaman aktuallığını itirməyəcək əsərlər yaratmışdır. Onun orta məktəb dərsliklərinə salınmış şeirləri, oxucular arasında geniş yayılmış hekayələri və digər əsərləri həmişə bizim dilimizin əzbəri olmuşdur. Biz Abdulla Şaiqi əvvəl uşaq yazıçısı kimi tanımış, sonralar isə böyüdükcə onu gəncliyin ən sevimli sənətkarlarından biri kimi qəlbimizdə yaşatmışıq. "Keçi", "Xoruz", "Uşaq və dovşan" kimi şeirləri, "Köç", "Məktub yetişmədi", "İldırım", "Xasay" əsərləri, o cümlədən "Araz" romanı yadımızdan çıxarmı? Heç vaxt!

A.Şaiq uşaqlarda bədii zövqün cilalanması, onlarda təmizlik, səliqəlilik, əməksevərlik, elmə, təhsilə maraq və sevgi hissinin aşı-

lanması məqsədi ilə çoxlu şeir yazmışdır. Şairin "Bahar nəğməsi", "Əkinçi nəğməsi", "Dəmirçi nəğməsi", "Məktəbli marşı", "Vətən nəğməsi", "Ana yurdum" və s. şeirləri uşaqların musiqi zövqünə, zehni inkişafına, onların vətənpərvərlik ruhunda tərbiyələnmələrinə xidmət edirsə, "Təmizlik" şeiri vacib əxlaqi sifətlər təlqin edir. Şeirdə balaca qəhrəmanın dili ilə deyilir:

Səhər durunca,
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
İnanmırsan, bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz:
Bax, beləyik biz! (III c., s.26)

Uşaqlara bu cür əxlaqi keyfiyyətlər cürbəcür forma və üsullarla aşılanır. Məsələn, yuxarıda misal gətirdiyimiz şeirdə təmizkarlıq, dişə qulluq etməyə çağırış uşağın şəxsində nəzərə çatdırılırsa, zəhmətsevərlik, insanlara gərək olub rahatlıq gətirən iş görməyin vacibliyi və əhəmiyyəti fikri **"Arı"** şeirində arının nümunəsində verilir. Şeirdə arının dilindən onun öz zəhmətkeşliyi ilə fəxr etməsi belə təsvir olunur:

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm…
Çalışaram doqquz ay,
Hamı məndən alır pay.
Balımdan qoy yesinlər
Mənə "Sağ ol!" desinlər (III, c., s.29).

Zəhmətdən zövq almağın şirinliyi uşaqlar üçün yazılmış “**Bir quş”** adlı başqa bir şeirdə də diqqətə çatdırılmışdır. Burada balaca qəhrəman özünə yuva quran bir quşun “işdən yorulub duran zaman” şad, xürrəm “Cik-cik” oxumasına böyük maraq göstərir. Şeirin təsir gücü də elə oyatdığı bu maraqdadır. Uşaqlarda zəhmətsevərlik, valideynlərin köməyinə yetişmək duyğusu A.Şaiqin **“Yeni köməkçi”** şeirində oğlanın tarlada xış sürən anasına könüllü, öz təşəbbüsü ilə kömək etməsinin təsviri ilə aşılanır. “Layla”, **“Oyan, oğlum!”, “Məktəbdə”** və s. şeirlərdə isə balaca qəhrəmanlar elm oxuyub tərəqqi etməyə, layiqli vətəndaş kimi yetişməyə çağırılır. Məsələn, “Layla” şeirində Ana öz balasını ancaq yemək-içmək əsiri olmaqdan çəkindirir, böyüyüb “bir azca boy atandan” sonra oxumaq barədə düşünməyə və məktəbə getməyə səsləyir:

Böyü bir az, yeddi yaşa yetgilən,
Səhər tezdən dur, məktəbə getgilən;
Dərs oxuyub yazmağa səy etgilən;
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən. (III c., s.7)

A.Şaiq öz balaca qəhrəmanını addım-addım izləyir. Biz onun **“Oyan, oğlum!”** şeirində sanki **“Layla”** şeirindəki uşağı artıq məktəb yaşında görürük. Şair bu dövrdə uşağa layla deməyə yox, onu dərsə həvəsləndirməyə, əslində laylanın məzmun və ideyasını dəyişməyə üstünlük verir:

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol dur, get məktəbə,
Sarıl elmə, ədəbə.

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu. (III c., s. 14)

“Layla” şeirindən fərqli olaraq “Oyan, oğlum!” şeirinin misraları yığcam, ahəngdar, daha dinamikdir. Bu məziyyətlər şeirin qəhrəmanına şirin yuxu qoynunda uyumaq yox, elm, tərəqqi yolunda hərəkət, fəallıq təlqin edir. A.Şaiq bilirdi ki, millətin gələcəyi olan uşaqların yüksək səviyyədə yetişmələri onların analarının savadlandırılmasından, elmli olmasından çox asılıdır. Şairə görə, savadlı, elmli və tərbiyəli ananın qucağı millətin gələcəyi üçün bir işıq, nur mənbəyidir. Bu düşüncələrlə “İşıq mənbəyi” şeirində yazırdı:

Qaranlıqdır vətənimin hər bucağı,
Sönmüş ata-babamızın ocağı…
Tərəqqi etməyə lazımdır ancaq,
Tərbiyəli anaların qucağı.
Qadınla hər millət eylər tərəqqi,
Qadındır millətin şamı, çırağı… (II c., s.36)

Bu haqlı qənaətlə A.Şaiq qadınlarımızın təhsil alıb, mənən və ruhən azad olması uğrunda yorulmaz mübarizə aparan həmkarlarının ön sıralarında dayanırdı. A.Şaiq bilirdi ki, millətin gələcəyi olan uşaqların yüksək səviyyədə yetişmələri onların analarının savadlandırılmasından, elmli olmasından çox asılıdır. Şairə görə, savadlı, elmli və tərbiyəli ananın qucağı millətin gələcəyi üçün bir işıq, nur mənbəyidir. Bu düşüncələrlə “İşıq mənbəyi” şeirində yazırdı:

Qaranlıqdır vətənimin hər bucağı,
Sönmüş ata-babamızın ocağı…
Tərəqqi etməyə lazımdır ancaq,

Tərbiyəli anaların qucağı.
Qadınla hər millət eylər tərəqqi,
Qadındır millətin şamı, çırağı…

Uşaq dünyasına bələd olan şair otu, çiçəyi, gülü, heyvanı danışdırır. Abdulla Şaiq uşaq şeirlərində balacaların ürəyinə ilk poetik qığılcımlar səpməyə, təbiət gözəlliklərini onlara sevdirməyə çalışır. Onun təbiət təsvirlərinə, qışın, baharın, payızın təsvirinə həsr etdiyi şeirlər maraq doğurur. Şair balacalrı vətənə məhəbbət ruhunda tərbiyə edir. Mənim balaca dostlarım, yəqin ki, hamınız Abdula Şaiqin əsərlərini oxumusunuz. Deyin görək onun "Qışın nəğməsi", "Yetim cücə","Oyan oğlum", "Uşaq və dovşan", "Quzu" şeirlərini hamınız əzbər bilirsinizmi? Şairin mənzum nağılları və poemaları da onun yaradıcılığında xüsusi yer tutur. Abdulla Şaiq uşaqlara hiyləgərliyi başa salmaq üçün "Tülkü həccə gedir", dostluğu öyrənmək və onu qiymətləndirmək üçün "Tıq-tıq xanım" mənzum nağıllarını yazmışdır. Bu əsərlər geniş şöhrət qazanmışdır. Təsadüfi deyil ki, bu əsərlərin motivləri əsasında eyniadlı cizgi filmləri çəkilmişdir. Hər iki əsərlərdə uşaq təfəkkürünə uyğun nağıl süjeti vardır. Tülkünün hiyləgərlik edərək əlinə təsbeh alması, guya elədiyi günah işlərdən peşiman olması. "Həccə getməsi", özünü əməli-saleh adam kimi göstərib toyuq- cücəyə kələk qurması, onları parçalayıb yeməsi maraqlı birdillə nəql edilir.

Bildiyimiz kimi Abdulla Şaiq roman, hekayə, povest müəllifi kimi də tanınır. O "Məktub yetişmədi", "Köç", "Daşqın", "Pirin kəraməti", "İblisin hüzurunda", "Özü bilsin mənə nə", "Baş üstdə" kimi hekayələrin, "Xasay" povestinin, "Əsrimizin qəhrəmanları", "Dursun","Araz", "İki müztərib yaxud əzab və vicdan" romanlarının müəllifidir.

Abdulla Şaiq dramaturgiya janrında da qələmini sınamış, yazdığı mənzum pyeslər Kukla, Gənc Tamaşaçılar teatrında müvəffəqiyyətlə səhnəyə qoyulmuşdur. O, uşaqlar üçün yazdığı səhnə əsərlərində nağıl süjetlərindən bacarıqla istifadə etmişdir.

Belə ki, balaca oxucularımızın ən çox sevdiyi“Yaxşı arxa”,“Tıq-tıq xanım”, “Tülkü və xoruz” kitabları bu il düz 110 yaşını qeyd edir. Uşaqlar, həmin kitablar sizinlə görüşə gəlib. Gəlin onlarla sizi tanış edim.

*Metodist ekranda kitabları iştirakçılara göstərir. Bu kitablar kitabxanamızın qızıl fondunda qorunur.*

A.Şaiq folklor və klassik yazılı ədəbiyyatımızın motivləri əsasında uşaqlar üçün “Gözəl bahar”, “Çoban”, “İntiqamçı xoruz”, “Danışan kukla”, “İldırım”, “El oğlu”, “Vətən”, “Fitnə”, “Nüşabə”, “Şah Abbas”, “Qaraca qız”, “Tapdıq Dədə” və s. pyeslərini qələmə almış və uşaq dramaturgiyası sahəsində Azərbaycanda yeni-yeni müəlliflərin meydana çıxmasına səbəb olmuş, habelə gənc müəlliflərin qələmlərinin bu sahədə püxtələşməsində öz müəllim və təcrübəli yazıçı qayğısını əsirgəməmişdi. Ədibin uşaq və gənclər üçün yazdığı bu pyeslərini məzmununa, ideya-estetik xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar: birinci qrupa “Gözəl bahar”, “Danışan kukla”, “İntiqamçı xoruz”, “Ürək tikmək, yaxud qurban bayramı” və s. pyeslər daxildir ki, onlar kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. “Gözəl bahar” A.Şaiqin uşaqlar üçün yazdığı ilk pyesdir və bu əsərlə o, Azərbaycanda uşaq dramaturgiyasının əsasını qoymuşdur». Əsərdə Baharla qışın timsalında həyat, ümid və xoşbəxtliklə zülm və əsarət törədən qüvvələr arasında gedən kəskin mübarizə təsvir edilir. Nəhayət, Baharın “ordu”suna daxil olan Yer, Su, Qaranquş, Torpaq, Çiçəklər və s. qışın “ordusu” Boran, Qar və sairin üzərində qələbə çalaraq şən və xoşbəxt həyatı bərqərar edirlər…

A.Şaiqin ikinci qrupa – yeniyetmə və gənclər üçün nəzərdə tutulan pyesləri sırasına “Bir saat xəlifəlik”, “Yazıya pozu yoxdur”, “Qafqaz çiçəyi”, “İldırım”, “El oğlu”, “Vətən”, “Ana”, “Xasay”, “Fitnə”, “Qaraca qız”, “Nüşabə” əsərləri daxildir. Həmin əsərlərin əksəriyyətini o, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi-pedaqoji şöbəsinin müdiri işlədiyi dövrdə – 1937-ci ildən sonra qələmə almışdır. Bu peşələrdən “Gözəl bahar”, “Danışan kukla”, “Bir saat xəlifəlik”, “El oğlu”, “Vətən” və başqaları folklor motivləri əsasında, “Qafqaz çiçəyi”, “İldırım”, “Fitnə”, “Qaraca qız”, “Aldadılmış ulduzlar”, “Nüşabə” tarixi mövzuda və klassik yazılı ədəbiyyatdan istifadə yolu ilə, “Xasay”, “Vəzifə” isə müasir həyatdan götürülərək yazılmışdır. Ədibin uşaq pyeslərinin əksəriyyəti onun öz sağlığında və sonrakı dövrdə uğurla tamaşaya qoyulmuşdur. Həmin əsərlər uşaqların və yeniyetmə gənclərin dünya görüşlərinin, bədii-estetik zövqlərinin püxtələşməsində, onlarda əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində böyük rol oynamış və öz aktuallıqlarını bu gün də saxlamaqdadırlar.

Abdulla Şaiq yaradıcılığında təmsillərin xüsusi yeri vardır. Kitabxanalarda bu **təmsillər əsasında rəsm müsabiqəsi** təşkil etmək məqsədəuyğundur. Bunun üçün uşaq kitabxanaları 8-16 yaş arası uşaqların “Uşaq ədəbiyyatımızın banisi Abdulla Şaiq qələmində təmsillər” adlı virtual rəsm sərgisini təqdim edə bilərlər. Rəsm müsabiqəsi onlayn şəkildə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilə bilər. Müsabiqə zamanı kitabxanaçılar təhsil müəssisələri ilə birlikdə müsabiqənin mövzusunu, daha sonra isə müsabiqədə iştirak edəcək şagirdlərin sayını müəyyənləşdirməlidirlər. Müsabiqəyə bir qayda olaraq əvvəlcədən müəyyən olunmuş təmsilə uyğun rəsmlər təqdim oluna bilər. Metodist müsabiqədən əvvəl Abdulla Şaiqin təmsilləri haqqında müsabiqə iştirakçılarına məlumat verir:

**Metodist:** Abdulla Şaiq təmsil janrına tez-tez müraciət etmişdir. Ədibin aşağı siniflər üçün tərtib etdiyi dərsliklərdə özünün yazdığı, həmçinin Avropa ədəbiyyatından tərcümə etdiyi təmsillər yer alırdı. O, alleqoriyalar, rəmzlər vasitəsilə insana məxsus hər hansı xüsusiyyətin heyvanlar və ya əşyalar üzərinə köçürərək mətnaltı mənanı uşaqların qavrama səviyyəsinə uyğunlaşdırır və onların əsərdən doğru nəticə çıxarmasını asanlaşdırırdı. A.Şaiq folklordan və klassik ədəbiyaytdan götürdüyü mövzular əsasında uşaqlar üçün "Tıq-tıq xanım", "Yaxşı arxa", "Eşşək üstündə səyahət", "Ovçu Məstan", "Sehrli üzük", "Nüşabə", "Sultan Səncər və Qarı" mənzum nağıllarını, "Tülkü və Xoruz", "Dəvə və Siçan", "Arı və Eşşək", "Tülkü və Dəvə", "Dəvə, Tülkü və Qurd" və s. təmsillərini qələmə almışdır. A.Şaiq uşaqlar üçün "Tülkü və Aslan", "Tülkü və Qurd", "Aslan, Qurd və Tülkü" və s. təmsillər də yazmışdır. Həmin təmsillərdə düşüncəsizliyin və lövğalığın acınacaqlı nəticəsi, zalımlıq və tamahkarlıq kimi qüsurlar tənqid olunub, ibrətamiz, əxlaqi nəticələr çıxarılır. "Tıq-tıq xanım", "Tülkü Həccə gedir", "Yaxşı arxa" mənzum nağıllarında, "Şələquyruq" adlı mənzum hekayəsində folklordan bəhrələnmə yolu ilə balaca oxucularına maraqlı əhvalatlardan bəhs edir. Həmin təmsillərdə düşüncəsizliyin və lövğalığın acınacaqlı nəticəsi, zalımlıq və tamahkarlıq kimi qüsurlar tənqid olunub, ibrətamiz, əxlaqi nəticələr çıxarılır. Bu zaman onlarda özündən razılıq, hiylə-gərlik və riyakarlıq, tamahkarlıq və ziyankarlıq kimi zərərli vərdiş-lərdən uzaq olub, ağıllı, sadə və səmimi, dostluqda həmrəy və sədaqətli olmaq kimi əxlaqi sifətlər aşılamağa çalışır. Abdulla Şaiq gənc nəslin milli ruhda tərbiyələndirilməsi, uşaqların əsl vətəndaş kimi yetişdirilməsi üçün zamanın fürsət verdiyi bütün imkanlardan bacarıqla istifadə etmişdir. Bu fikrə onun bədii əsərləri və dərslikləri ilə yanaşı ədibin 1918-ci ildə yaratdığı və öz adı ilə "Şaiq Nümunə Məktəbi" kimi məşhurlaşan təhsil ocağı da etibarlı

dayaqdır.
Abdulla Şaiqin qələmə aldığı uşaqlar üçün yazdığı digər əsərlərlə yanaşı, bu bədii nümunələr də balaca oxucular tərəfindən maraqla qarşılanmış, pedaqoji və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, onların bəzilərinin motivləri əsasında uşaqlar üçün cizgi filmləri çəkilmişdir. Kitabxanada ədibin yubileyi ilə əlaqədar **cizgi filmləri həftəsi**nin təşkili uşaqların Abdulla Şaiqin qələmə aldığı əsərləri daha yaxından tanımağa imkan verir. Pandemiya ilə əlaqədar bu görüş onlayn şəkildə təşkil olunur.
F.Köçərli adına Respublika Uşaq Kitabxanası Milli uşaq ədəbiyyatımızın banisi Abdulla Şaiqin yubileyi münasibətilə oxucularla **"Uşaq ədəbiyyatımızın sönməz çırağı"** adlı video görüş hazırlamışdır. Ssenarini sizə təqdim edirik**.**
*(Abdulla Şaiq fondda kitablara baxır, öz kitabını tapır,ədibin yubileyi münasibətilə təşkil olunan sərginin qarşısna gəlir)*
**Aparıcı:** Əziz oxucular, Bu gün uşaq ədəbiyyatımızın sönməz çırağı, yazıçı, publisist, dramaturq, pedaqoq, ədəbiyyatşünas, tərcüməçi Abdulla Şaiq Kitabxanamızın "Günəşdən gələn pay" layihəsinin növbəti qonağıdır. Azərbaycanda məktəb və maarif işinin yüksəlişi, milli uşaq ədəbiyyatının, uşaq dramaturgiyasının yaranması bir başa A.Şaiqin adı ilə bağlıdır. O, 1906-cı ildən başlayaraq silsilə uşaq şeirlərilə ilə milli uşaq poeziyasının incilərini yaratmışdır. Abdulla Şaiqin təşəbbüsü ilə 1908-ci ildə «İkinci il» adlı dərslik tərtib edilmişdir. Həmin dərslikdə klassik rus ədəbiyyatından tərcümə olunmuş nümunələr, eyni zamanda A.Səhhət, M.Ə.Sabir və şairin yaradıcılığına məxsus əsərlər yer almışdır. «İkinci il» dərsliyi əlifba təlimindən sonra oxunan birinci kitab idi. Dərsliyi dostu, böyük maarifçi Firidun bəy Köçərli də, yüksək qiymətləndirmişdi.
**Abdulla Şaiq:** Salam əziz balalar. F.Köçərli adına Respublika uşaq kitabxanasında sizlərin görüşünə gəldim. Bu günki, görüşümüzün

qayəsi 100 il öncə sizlər üçün yazdığım kitabların necə sevilməsidir. Sevimli balalar, bir şəxsiyyət kimi sizin formalaşmanızda, dünyagörüşünüzün artmasında mütaliənin rolu böyükdür. Mütaliə insanı söhbətcil, hazırcavab edir. Mütaliənin əsasını isə kitablar təşkil edir.Əziz balalar, siz oxuyacağınız kitabı seçərkən də çox diqqətli olmalısız. Həm də oxuduğunuzu düzgün dəyərləndirməyi bacarmalısız. Kitab bizim keçmişimiz və gələcəyimiz arasında bir körpü rolunu oynayır. Əgər bizim uşaqlar bu gün kitab oxumasalar onlar həyatda heç vaxt uğur qazana bilməyəcəklər. Mənim dəyərli və sevimli balalarım! Kitabların qorunub-saxlanılmasında və sizlərə çatdırılmasında kitabxanaların rolu həqiqətən də böyükdür.

**Aparıcı:** Bu gün uşaq baxçalarında, məktəblərdə sizi sevə-sevə oxuyurlar. Dərs proqramına bütün əsərləriniz salınmışdır. Bakıdakı möhtəşəm Kukla teatrı Sizin adınızı daşıyır. İllər keçsə də sizin uşaqlar üçün yazdıqlarınız heç vaxt öz müasirliyini itirməyib. Uşaqlar üçün yazdığınız "Xoruz", "Bənövşə", "Keçi", "Quzu", "Qızılgül", "Qərənfil" və digər şeirləriniz, uşaqlar tərəfindən indi də maraqla qarşılanır. "Tıq-tıq xanım", "Tülkü həccə gedir" kimi mənzum nağıllarınıza çəkilmiş cizgi filmləri kitabxanamızın saytında uşaqlar tərəfindən daim sevilərək izlənilir.

Abdulla Şaiq: Hə, deməli mənim uşaqlar üçün yazdıqlarımı indi də oxuyurlar. Buna çox sevinərəm. Əhsən, mənim balalarım!

Aparıcı:: Bilirsiniz, 1990 –cu ildən Bakıda Abdulla Şaiq adına ev -muzeyi fəaliyyət göstərir, biz uşaqlarla birlikdə dəfələrlə mədəniyyət ocağı olan bu muzeyin qonağı olmuş, sizin həyat və bədii yaradıcılığınızla yaxından tanış olmuşuq.

*(Aparıcı Tıq-Tıq xanımı görür)*

**Aparıcı:** Qara qız hara gedirsən?

**Tıq-tıq xanım:** Qara özünsən.
Çərə gedirəm, çürə gedirəm
Özüm bilərəm hara gedirəm?
Siçan bəyi axtarıram.

**Aparıcı:** Nazlı xanlm, duzlu xanım niyə hirslənirsən. Bir bax gör uşaqlarla virtual görüşə kim gəlib? Uşaqların sevimlisi, səni uşaqlara çox sevdirən Şaiq baba!

**Tıq-tıq xanım:** Bir balaca böcəyəm mən,
Çiçəkdən göyçəyəm mən.
Siçan bəyi tapmasam,
Sizdən də küsəcəm mən.

**Aparıcı:** Nazlı xanlm, duzlu xanım biz razı olmarıq ki, sən bizdən küsəsən. Harda olsa Siçanqulu bəy özünü bura çatdırar.

*(Siçan bəy gəlir. Tıq-tıq xanım sevincək bir səslə oxuyur)*

**Tıq-tıq xanım:** Bir balaca böcəyəm mən,
Çiçəkdən göyçəyəm mən.
Dostlarımla görüşdüm
Gör necə xoşbəxtəm mən.

Uşaqlar, siz məni tanıdınız? Düzdür, mən saçı uzun suray xanım, donu uzun daray xanımamam. Həyatım boyu çox maraqlı hadisələrlə rastlaşmışam. Amma məni uşaqlara sevdirən Abdulla babanı heç görməmişdim. Bu günki görüşə gəlməkdə məqsədim Şaiq baba ilə görüşmək, həm də Siçan bəylə barışmaq istəyimdir. Görəsən Siçan bəy mənimlə barışar?

**Siçan bəy:** Saçı uzun suray xanım, donu uzun daray xanım bu gün mən səninlə barışıram. Belə xoş gündə də küsülü qalmaq bizə yaraşmaz. Amma sənə sözüm var. Dostlarınla mehriban ol, sənə yaxın olanların könlünə dəymə, xudbin olma. Qoy hamı görsün ki, dostluq, həmrəylik həmişə insanları birləşdirir. Əgər həmişə gülərüz, mehriban olsaq hamı bizi sevər, əzizləyər, və mən də heç vaxt səndən küsmərəm. Elə isə, əlini mənə bəstəricik.

**Tıq-tıq xanım:** Mən səndən heç vaxt küsməyəcik.

**Abdulla Şaiq** Elə isə mən də sizə kitab hədiyyə edim. Kitab insanın ən yaxın dostudur.

*(Tıq-tıq xanım və siçan kitabı alaraq əl-ələ tutub gedirlər)*

**Abdulla Şaiq:** Əziz uşaqlar, düşünürəm siz hamınız dogma vətənimizin ən layiqli övladları olacaqsınız. Yaxşı oxuyun, yalnız oxumaqla, çalışmaqla xalqa, Vətənə layiq insan olarsınız.

**Aparıcı:** Sevimli oxucular, Abdulla Şaiqin 140 illik yubileyinə həsr olunan "Günəşdən gələn pay" adlı layihəmizin sonluğunu xalq şairi Səməd Vurğunun sözləri ilə bitirmək istərdim:

Şaiqim. Şairlər içində təksən
Təmiz vicdanınla gülsən, çiçəksən
Dilindən küsməmiş tanış da, yad da,
Səndən inciməmiş qarıncalar da!

**Onlayn dəyirmi masa:** Bu tədbirin təşkilində də bütün təşkilati işlər birbaşa metodistə həvalə olunur. Abdulla Şaiqin yaradıcılığı ilə bağlı müzakirə olunacaq məsələlər öncədən müəyyənləşdirilməli, qonaqlar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalıdır. Onlayn dəyirmi masanın keçirilməsi üçün mövzu ilə bağlı suallar hazırlanır. Tədbirdə ədəbiyyatşünaslar, ədəbiyyat müəllimlərinin iştirakı məqsədəuyğun olar. Tədbir zamanı Abdulla Şaiqin yaradıcılığından bəhs edən virtual kitab sərgisi, videoçarx hazırlanıb nümayiş etdirilə bilər. Qeyd edək ki, onlayn tədbirlərin təşkili üçün ilk olaraq kitabxananın elektron ünvanında tədbirlə bağlı elan yerləşdirilməlidir. Bu müddət ərzində kitabxanaçı tədbirdə iştirak edəcək şəxslərlə sıx əlaqə saxlamalı, proqram tərtib etməli, çıxış edəcək şəxsləri və onların onlayn qeydiyyatdan keçə bilmələri üçün veb ünvan müəyyən etməlidir. Abdulla Şaiqin 140 illik yubileyi ilə əlaqədar olaraq "Azərbaycan ictimai ədəbi və mədəni fikri tarixində görkəmli şair **Abdulla Şaiq yaradıcılığında vətənpərvərlik"** və s. adlı dəyirmi masanın planını sizə təqdim edirik.

**Metodist:** A.Şaiq gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işinə də xüsusi diqqət yetirmiş, bu mövzuda xüsusən Böyük Vətən müharibəsi illərində marş və nəğmə ruhlu şeirlər yazmışdır. Əgər onun "Ana yurdum", "Vətən nəğməsi", "Vətən" şeirlərində yeniyetmə gənclərdə vətənə sevgi, onun qədrini bilmək və uğrunda mübarizə aparmaq fikri və əzmi təlqin olunurdusa, "Zəfər nəğməsi" şeirində qələbə sevincinin təntənəsi şairin sinəsini qabardır. A.Şaiq bu sevincli anlarda da vətənin qədir-qiymətini, onun milli varlığımız üçün əvəzsiz nemət olduğunu bir daha diqqətə çatdırmağı unutmur.

**İştirakçı:**A.Şaiqi təkcə Azərbaycanın yox, bütövlükdə türk dünyasının, turan ellərinin taleyi düşündürür, narahat edirdi. Birinci Dünya müharibəsinin sonuna doğru türk dünyasının yadlar

pəncəsində çırpınması onun qəlbini vətəndaş kədəri ilə narahat edirdi. Həmin bəladan qurtuluş yollarının aranması cəhdi A.Şaiqin "Araz"dan "Turan"a" adlı romantik üslubda yazılmış simvolik poemasının əsas süjet xəttini təşkil edir. Əsərdən aydın olur ki, aşiq (vətən aşiqi) öz sevgilisinin ətrafını qara quzğunların alaraq, baş-larını onun dizinə söykəməsi xəbərindən bərk sarsılıb. Onun qəlbini parçalayan sevgilisinin ümidsizlik girdabında "gözlərindən inci kimi yaşlar axıdıb, gül kimi gündən-günə solmasıdır". Şair vəziyyətdən yeganə çıxış yolunun türk oğlunun öz əlində olmasında görür. Təsadüfi deyil ki, yadlar pəncəsində inləyən gözəl də inilti ilə soruşur ki, Türk dünyasında, Turan elində məni qurtaracaq bir ər yoxdurmu? Bu gözəlin yeganə sevgilisi onun halalca nişanlısı türk oğludur.

**İştirakçı:**Bununla A.Şaiq öz yurddaşlarını Vətəni yağı qəsdindən qurtarmaq üçün həmişə hazır, səfərbər olmağa çağırırdı. Şair başa düşürdü ki, hər tərəfi düşmənlərin sardığı bir şəraitdə aparılan ağır mübarizədə təkbaşına qalib gəlmək çətindir. Bu vəziyyətdən çıxış yolunu o, türkdilli xalqların mənəvi və sosial-siyasi bütövlüyündə, həm də hazırkı nəslin öz qəhrəman keçmişi ilə ruhi-mənəvi qovuşmasında görürdü. "Yeni ay doğarkən" (II c., s. 63-64) şerində təsvir edilir ki, Türk Anası öz oğluna türkün doğan hilalını işıq haləsi ilə bədirlənmiş ayını göstərərək, bu qız ismətli gözəlin yenicə doğulan ayın ondan – Türk oğlundan nəsə umduğunu bildirir. O, diqqəti ayın ətrafındakı yeddi ulduza cəlb edərək, deyir ki, bunlar yeddi türk dövlətinin rəmzidir. Həmin ulduzlar ayın ətrafında daha parlaq göründüyü kimi, türk dövlətləri də öz hilalı ətrafında sıx birləşsələr, daha qüvvətli və yenilməz olarlar. Türk oğlu Yavuz Günəşi Aydan və Ülkərlərdən çox sevsə də, bu yeni aya baxarkən onun varlığını özünün də baş aça bilmədiyi qəribə hisslər çulğalayır:

Annacığım! Bən Günəşi Aydan, yeddi ülkərdən
Çox sevirəm. Bilməm şu Aya bən baxarkən
Neçin əski diləklərim dalğalanır gözümdə?
Neçin tatlı, uğurlu bir duyğu doğar üzümdə?
Neçin bu Ay ruhuma pək uyğun, munis görünür?
İçim, dışım, Günəş kibi neçin nura bürünür?

**Müəllimə:** Bu arzu, ananın xeyir-duası əslində türkdilli xalqları, türk dövlətlərini birliyə çağıran milli-mənəvi bir ideya kimi səslənir. Həmin çağırış öz aktuallığını bu gün də saxlamaqdadır. Genetik yaddaşın oyatdığı bu tükənməz, ülvi duyğular türk dünyasının işıqlı sabahına nur çiləyən milli-mənəvi potensiyamızın istinad nöqtəsi, enerji, güc mənbəyi kimi diqqəti cəlb edir. Təsadüfi deyil ki, Anasının köməyi ilə "hər biri bir igidin yıldızı", daha doğrusu, hər biri bir türk dövlətinin rəmzi olan ülkərlər arasında özünün "pək parlaq o qırmızı ulduzunu" müəyyənləşdirib tapan Yavuzun urəyi həmin ülkərlərin bir-birlərindən uzaq dayanıb sönük görünməsinə dözmür və qəlbində onları birləşdirmək, mənən yaxınlaşdırmaq arzusu baş qaldırır. Həmin günəşi – türkdilli dövlətlərin yaxınlaşmasından, mənəvi-siyasi birliyindən yaranan Günəşi "taleyinin ülkəri" adlandıran Yavuz bütün dünyanın bu "günəş"ə tapınması, ondan vulkan kimi həyat qaynaması və Yer üzündə əmin-amanlığın bərqərar olaraq, qurdun quzu ilə otlaması arzusu ilə çırpınır. Vətən oğlu sanki öz Anası qarşısında And içir; o əllər ki, səni qurtarmaq üçün uzanmır, o dillər ki, səni anmır, o ürək ki sənin üçün döyünmür, qoy onların anaları ağlar qalsın!

**Videokonfrans**: Abdulla Şaiqin 140 illik yubileyi ilə əlaqədar olaraq kitabxanalarda yuxarı sinif şagirdləri ilə **"Abdulla Şaiqin bədii və elmi-nəzəri irsi"** adlı videokonfrans keçirmək olar. Coğrafi və dil sərhədləri tanımayan videokonfransın təşkilində, metodist mühüm rol oynayır. Belə ki, mövzunun və ünsiyyət dilinin seçilməsi, iştirakçıların dəvət olunması, müzakirələrin təşkili və onlara yekun vurulması kimi təşkilati işlər birbaşa Elmi-Metodika şöbəsinə həvalə olunur. Videokonfransın əsas üstünlüklərindən biri də iştirakçı tərkibinə, sayına, həmçinin, telekonfransın müddətinə məhdudiyyətin qoyulmamasıdır. Metodist konfransda çıxış edəcəyi mövzu üzrə ətraflı hazırlaşır. Onlayn konfransın keçirildiyi zaman müddətində metodist Abdulla Şaiqin bədii və elmi-nəzəri irsi mövzusunda qələmə aldığı kitablarla iştirakçıları tanış edir. Sonra isə ədibin yaradıcılığından bəhs edən slayd iştirakçılara təqdim olunur. Metodistin çıxışını sizə təqdim edirik:

**Metodist:**Abdulla Şaiq görkəmli romantik şair və dramaturq, nasir olmaqla yanaşı, həm də dövrünün tanınmış tənqidçi və ədəbiyyatşünaslarından olmuşdur. Onun elmi irsində Xaqanidən tutmuş XX əsrin əvvəllərinin görkəmli Azərbaycan, Yaxın Şərq, Qərbi Avropa və Rusiya ədibləri, şairləri haqqında yüksək elmi-nəzəri səviyyəsi ilə seçilən məqalə və oçerkləri vardır. Buraya tənqidçi və ədəbiyyatşünas ədibin "1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza səthi bir nəzər", "Mirzə Fətəli Axundov haqqında mülahizələrimiz", "M.F.Axundovun "Aldanmış kəvakib"i haqqında mülahizələrim", "Cavidin "İblis" nam hailəsi haqqında duyğularım", "Mirzə Ələkbər Sabirin tərcümeyi-halı", "Dilimiz və ədəbiyyatımız", "Səhhət təxəllüslü Mirzə Abbasqulu Mehdizadənin tərcümeyi-halı", "Şairi-milli və möhtərəm Sabir əfəndi", "Üdəba və şairlərimizin halı" kimi sanballı

məqalələrindən əlavə “Gülzar”, “Ədəbiyyatdan iş kitabı”, “Türk çələngi”, “Qiraət”, “Ədəbiyyat dərsləri”, “Türk ədəbiyyatı” dərsliklərinə yazdığı portret-oçerklər daxildir.

**I İştirakçı:** Elmi ədəbiyyatda doğru göstərilir ki, A.Şaiq ədəbi yaradıcılığında olduğu kimi, tənqidçilik fəaliyyətində də romantikdir. Bununla yanaşı, onun həm ədəbi-nəzəri baxışlarında, həm də bədii yaradıcılığında realist meyillər də mövcuddur. A.Şaiqin ədəbi-tənqidi məqalələri, ədəbiyyat tarixçiliyi konsepsiyası özünün nəzəri səviyyəsini və elmi dəyərini bu gün də qoruyub saxlamaqdadır. Onun yaradıcılığının bu sahəsi haqqında akademiklər Məmməd Cəfər, Kamal Talıbzadə, Bəkir Nəbiyev, professorlar Məmməd Məmmədov, Əflatun Saraclı, Kamran Əliyev və b. öz tədqiqatlarında ətraflı söhbət açmış, filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva ayrıca monoqrafiya yazmışdır. Elmi ədəbiyyatda A.Şaiq romantik bir ədib kimi dərk və qəbul edilir. Bununla yanaşı onun yaradıcılığında sentimentalizmin də kifayət qədər çəkiyə malik olduğu son vaxtlar daha sistemli şəkildə təsdiq edilməkdədir. Doğrudan da, ədibin istər poeziyasında, istərsə də nəsr və dramaturgiyasında romantizmlə sentimentalizm özünü paralel şəkildə göstərir.

**II İştirakçı:**Abdulla Şaiqin bədii və elmi-nəzəri irsi Azərbaycan ədəbiyyatı tarixinin qiymətli nümunələrindəndir. Onun poezyia və dramaturgiyasında olduğu kimi, nəsrində də xalqımızın müəyyən bir tarixi inkişaf və düşüncə mərhələsinin bədii-estetik mənzərəsi ilə tanış oluruq. Ədibin “İki familiyanın məhvi”, “Qoçpolad”, “Qafqaz çiçəyi”, “İldırım”, “Dursun” və s. əsərlərində (xanlıqlar) feodolizm dövrünün ictimai-tarixi mənzərəsi, məişəti, düşüncə tərzi, mənəvi-əxlaqi baxışları ilə qarşılaşır, “Məktub yetişmədi”, “Köç”, “İki müztərib, yaxud əzab və vicdan” əsərlərində real həyat həqiqətlərindən doğan yangılı, sentimental təsvir və təhkiyə üsulu

arxasında yazıçının incə və həssas qəlbinin çırpıntılarını duyuruq.

**III İştirakçı:** "Ovçu bağalar", "Timsah ovu", "Lovğa ovçu", "Meşə gözətçisi" hekayələrində ətraf aləmin cazibədarlığı müqabilində, qəhrəmanların bu gözəlliyə, canlılara qayğıkeş münasibəti fonunda oxucuda təbiətə məhəbbət və qədirşünaslıq təbliğ olunur. "Sözün qiyməti", "Usta Bəxtiyar", "Cümənin qəzəbi" əsərlərində müəllif folklor motivlərinə söykənib, xalq hikmətindən qidalanırsa, "Hitlerin yuxusu"nda faşizmin iç üzü, vəhşi təbiəti ifşa edilir, "Xasay", "Vəzifə" və digər nəsr əsərlərində müəllim və cəmiyyət, tərbiyə və gənclərin taleyi problemləri diqqət mərkəzində dayanır. Ümumiyyətlə, Abdulla Şaiqin bədii və elmi-ədəbi irsi özünün hərarətli vətəndaşlıq duyğusu, qanadlı və nikbin romantik vüsəti, işıqlı sabaha sarsılmaz inamı, soykökə möhkəm genetik tellərlə bağlılığı ilə milli ruh və mənəviyyatımıza bu gün də işıq salır. Abdulla Şaiq sənətinin əbədiyaşarlığının sirri, sehri də elə onun bu keyfiyyətlərindədir.

F.Köçərli adına Respublika şaq Kitabxanasının saytında bu linkdən https://www.clb.az/elektron-kitablar_k102.html istifadə etməklə Elektron kitablar bölməsindən Ş hərfini seçib Şaiq Abdulla ilə şairin qələmə aldığı dəyərli əsərlərə daxil oluruq.

1. Şaiq Abdulla - Quzum
2. Şaiq Abdulla – Bağça
3. Şaiq Abdulla – İki qəhrəman
4. Şaiq Abdulla – Zəhmət və zinət
5. Şaiq Abdulla –Arazdan Turana
6. Şaiq Abdulla –Ay pipiyi qan xoruz
7. Şaiq Abdulla –Xatirələrim

8. Şaiq Abdulla –İki pəhləvan
9. Şaiq Abdulla –Seçilmiş əsərləri I cild
10. Şaiq Abdulla –Seçilmiş əsərləri II cild
11. Şaiq Abdulla –Seçilmiş əsərləri III cild
12. Şaiq Abdulla –Tıq-Tıq xanım 2009
13. Şaiq Abdulla –Tıq-tıq xanım
14. Şaiq Abdulla –Tülkü Həccə Gedir 2013
15. Şaiq Abdulla –Tülkü Həccə gedir 1994
16. Şaiq Abdulla –Tülkü Həccə gedir 2001
17. Şaiq Abdulla –Yaxşı Arxa 2008
18. Şaiq Abdulla -Tülkü həccə gedir
19. Şaiq Abdulla - Danışan kukla

Məsələn:
https://drive.google.com/file/d/1QZ_qGNx_PU2ApBrwzSazt0DSyYJPJzvN/view

https://drive.google.com/file/d/1vBGDq4ukQ0wRMnJkccr24gI66CLiV7Ub/view

Uşaq ədəbiyyatı xəzinəsindən Abdulla Şaiqin biblbioqrafiyası kitabı ilə tanış olmaq istəyən oxucular https://www.clb.az/dosyalar/669.pdf linkinə daxil olub, məlumatlardan istifadə edə bilərlər.

Abdulla Şaiqin yubileyi ilə əlaqədar F. Köçərli adına Respublika Uşaq Kitabxanasının saytında şairin yaradıcılığını əhatə edən Elektron Məlumat Bazası yerləşdirilmişdir.

htt //clb.az/elektron/SHAIQ/index.html
https://www.clb.az/veritabani.php

- ANA SƏHİFƏ
- **HƏYAT VƏ YARADICILIĞI**
- **HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ**
- **ABDULLA ŞAİQİN MÜDRİK DEYİMLƏRİ**
- **GÖRKƏMLİ ŞƏXSLƏR ŞAİR HAQQINDA**
- **ƏSƏRLƏRİ**
- **SÖZLƏRİNƏ YAZILMIŞ MAHNILAR**
- **HAQQINDA**
- **XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ**
- **ABDULLA ŞAİQƏ HƏSR EDİLMİŞ ŞEİRLƏR**
- **FOTOQALEREYA**
- **VİDEOQALEREYA**
- **KİTABLAR**
- **MƏQALƏLƏR**

http: //clb.az/elektron/SHAIQ/index.htm
**SƏNƏDLİ FİLMLƏR**
**SƏHNƏYƏ QOYULMUŞ ƏSƏRLƏRİ**
**CİZGİ FİLMLƏRİ**
**SÖZLƏRİ ABDULLA ŞAİQİNDİR**
**SÖZLƏRİNƏ BƏSTƏLƏNMİŞ MAHNILAR**
**RADİODAKI ÇIXIŞLARI**

**Virtual kitab müzakirəsi**




Bu tədbirin təşkili üçün metodist müzakirə edəcəyi ədəbiyyat haqqında ətraflı məlumat toplayır. ZOOM proqramı ilə məktəblilər, musiqi müəllimlər müzakirəyə qoşulur. Sonda metodist iştirakçıların suallarını cavablandırır.

**Metodist:** Bu gün biz sizinlə Abdulla şaiqin **"Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri"** kitabını müzakirə edəcəyik. Abdulla Şaiqin yaradıcılığı qırılmaz tellərlə musiqi sənəti ilə bağlıdır. Onun yaradıcılığında bilavasitə musiqi obrazları, musiqi süjetləri var. Şaiq poeziyasının, Şaiq şəxsiyyətinin musiqililiyi daha dərində, onun xalq musiqi-poetik yaradıcılığı ilə əlaqəsindədir. Şairin bəzi xalq arasında geniş yayılmış şeirləri xalq mahnıları kimi tanınmışlar. Üzeyir Hacıbəyli tərəfindən nota köçürülmüş "Şəfəq sökülərkən" mahnısının mətni Şaiqin 1913-cü ildə nəşr olunan "Dağlar sultanı" şeirinə uyğundur. Böyük sənətkar görünür "sultan" sözündən ehtiyat etdiyi üçün mahnının adını dəyişmişdi. Azərbaycan folklorunun gözəl bilicisi məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli 1912-ci ildə həmin şeiri əlyazmasında oxumuş və onu şair dostunun ən gözəl şeirlərindən biri kimi tərifləmişdi. Üzeyir Hacıbəylinin "Şəfəq sökülərkən" mahnısının musiqi təhlili onun 20-ci əsrin əvvəlində yaranmasına dəlalət edir. Abdulla Şaiqin uşaq şeirlərinin bir çoxu zaman keçdikcə mahnıya çevrilib, müxtəlif melodiyalarla oxunmağa başlayıb, Şaiq poezisiyası bir çox uşaq xalq mahnılarının mətn əsasını təşkil edib. Belə poetik nümunələr içərisində "Xoruz", "Keçi", "Dovşan, dovşan, a dovşan", "Bənövşə", "Qərənfil", "Can gülüm" şeirlərini göstərmək olar.

Abdulla Şaiq musiqiyə uyğun janr, vəzn, ritmlərdə poetik nümunələr yazmağa xüsusi həvəs göstərmiş, inqilabdan əvvəlki illərdə çoxlu əmək nəğmələri, laylalar, marşlar yazmışdır. Maraqlıdır ki, 10-a qədər şeirini şair özü mahnı, nəğmə adlandırmışdı: "Əkin nəğməsi", "Əmək nəğməsi", "Sənət nəğməsi". Bu şeirlərin poetik dili və vəzni musiqiyə çox yaxındır. A.Şaiqin 1910-cu ildə uşaqlar üçün qələmə aldığı (1912-ci ildə nəşr olunub) "Gözəl Bahar" pyesini hələ əlyazmasında oxuyan Firidun bəy Köçərli 1911-ci il 14 iyun tarixli məktubunda A.Şaiqə yazırdı: "Qızlara "Bahar xanım" ünvanında yazdığınız mənzumə çox xoşuma gəldi. Ondan yaxşı operetta əmələ gələr... Bu barədə Üzeyir Hacıbəyov ilə məsləhət ediniz". A.Şaiq dostunun məsləhətilə "Gözəl Bahar" pyesi əsasında uşaq operasının librettosunu yazmışdır. Zülfüqar bəy Hacıbəyov 1946-cı ildə A.Şaiqə *"Nüşabə"* pyesi əsasında opera librettosu yazmağı təklif edir. Ədib librettonu yazır, lakin Z.Hacıbəyov operanın ancaq Uvertürasını və Nüşabənin bir ariyasını tamamlaya bilir. Bəstəkarın bu libretto əsasında yazdığı musiqinin əlyazmaları AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunur. A.Şaiqin poeziyası Azərbaycanın bir çox görkəmli bəstəkarlarının ilham qaynağı olmuşdur. Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Əşrəf Abasov, Cahangir Cahangirov, Nazim Əliverdibəyov, Tofiq Quliyev, Oqtay Zülfüqarov, Şəfiqə Axundova, Hökumə Nəcəfova, Ağabacı Rzayeva, Qənbər Hüseynli, Ramiz Mirişli, Rəşid Şəfəq, Oqtay Kazımi, Sevda İbrahimova, Əziz Əkbər Əzizli, Cavanşir Quliyev, Elnarə Dadaşova, Rəhilə Həsənova, Eldar Mansurov, İlham Abdullayev, Zeynəb İsmayılzadə və b. Ədibin dram əsərləri uzun illərdir ki, teatr səhnələrində tamaşaya qoyulur və bütün bu tamaşaları bəstəkarlarımızın musiqisi əlvan çalarlara boyayıb: *S.Rüstəmov - "Nüşabə", S.Hacıbəyov -"Vətən", Ə.Abbasov -"Fitnə", Z.Bağırov*

*və R.Şəfəq -"Bir saat xəlifəlik", T.Quliyev -"Eloğlu", R.Şəfəq -"Tülkü, tülkü tünbəki", müasir dövrümüzdə C.Quliyev "Gözəl bahar", E.Dadaşova "Tıq-tıq xanım"* musiqili nağılı, Vaqif Gərayzadə "Danışan gəlincik" və s. 2011-ci ildə A.Şaiqin 130 illik yubileyi münasibətilə ədibin mənzil-muzeyi tərəfindən Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri" not kitabı nəşr edilidi. R.Şəfəqin tərtib etdiyi bu nəfis not kitabında adları sadalanan bəstəkarların əsərləri, o cümlədən, Ərtoğrul Cavidin Şaiqin sözlərinə yazdığı mahnılar yer almışdı. Qeyd etmək lazımdır ki, not kitabında toplanan əsərlərin əksəriyyəti ilk dəfədir ki, nəşr edilirdi və ora daxil olan bəzi əsərlər mənzil-muzeyinin əsas fondunda qorunan müəllif yazmaları əsasında yığılmışdı. Kitabın Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeyində keçirilən təntənəli təqdimat mərasimində iştirak edən musiqi xadimləri, bəstəkarlar, musiqişünaslar toplunu yüksək dəyərləndirmişlər. Abdulla Şaiqin mənzil-muzeyində ədibin tamaşa və şeirlərinə yazılmış musiqi əsərlərinin notları və bəstəkarlar tərəfindən muzeyin fonduna hədiyyə edilmiş avtoqraflı əlyazmaları sərgilənir. Uşaq kitabxanaları Abdulla Şaiqin yubileyi ərəfəsində bağçalarla, ibtidai siniflərlə birgə onlayn şəkildə "Oxuyub, tanıyaq" başlığı altında **video görüş** də təşkil edə bilər. Ucadan oxunun uşaqlar üçün böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq yubiley münasibətilə bağçalarda, ibtidai siniflərdə şairin kiçik yaş qrup oxucular üçün yazılmış şeirlərin, hekayələrin ucadan oxusu təşkil olunur. Çünki, ifadəli oxudan sonra adətən kitabxanaçı uşaqlarla sual-cavab keçirir və bu sual-cavab əsasında uşaqların nə dərəcədə diqqətcil olmaları, onların zehni, şeirləri qavrama qabiliyyətlərini müəyyənləşdirir. Məktəbəqədər yaşlı və kiçikyaşlı oxucularımız üçün Abdulla Şaiqin "Keçi", "Xoruz", "Bənövşə", Təmizlik", "Ana yurdum", "Top oyunu", "Quzu" və s. şeirlərinin ucadan oxusunu təşkil etmək olar. Bu

şeirlərin dili o qədər sadə, aydındır ki, uşaq bir dəfə oxuyan kimi yadında saxlayır. Uşaq psixologiyasına bələd olan şair bu şeirlərlə həm uşaqlara heyvanlar haqqında ilk məlumat verir, həm də onların nitqini inkişaf etdirməyə çalışmışdır. Abdulla Şaiqin yubileyi münasibətilə uşaq kitabxanalarında aşağı sinif şagirdləri ilə **virtual şeir müsabiqəsinin** keçirilməsi məqsədəuyğundur. Pandemiya ilə əlaqədar bu müsabiqə virtual şəkildə təşkil olunur. Müsabiqənin şərtləri elan şəklində kitabxananın saytına yerləşdirilir. Müsabiqə başa çatdıqdan sonra Abdulla Şaiqin qələmə aldığı şeirləri ən yaxşı səsləndirən oxucu qalib elan olunur. Şairin kiçik yaşlı uşaqların həyatından bəhs edən şeirləri bütün oxucuların, o cümlədən də, kiçik yaşlı oxucuların şəxsi kitabxanalarında sevimli kitabları arasında yer alır. Belə ki, bu şeirlər hər bir dövrün azyaşlılarının böyük rəğbətini qazanmışdır. Bu əsərlər kiçik yaşlı oxucularda maraq yaradır və onların dünyagörüşünün artmasına kömək edir.

**Quzu**

Bir obada körpə quzu,
Mələr-mələr, qaçar düzü,
Anasın axtarar gözü.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.
Gün əyildi, çökdü duman,
Sürü qayıtdı otlaqdan;
Səs-küy ilə doldu hər yan.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Qoyunları çoban yığar,
Fatı xala gəlib sağar;
Quzum mələr, durub baxar.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Anasını quzum görər,
Ayaqların yerə dirər,
Məməsini tapıb əmər.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Quzum çıxdı göy otlağa
Yanaşdı bir boz oğlağa,
Çıxdı onunla oynağa.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

## ARI

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm.

Səhər güllər açınca,
Gözəl qoxu saçınca

Uçaram göy yamaca,
Çiçək açmış ağaca,

Ya çəmənə, meşəyə,
Qonaram hər çiçəyə;

Şirəsini çəkərəm,
Pətəyimə tökərəm,

Çalışıram doqquz ay,
Hamı məndən alır pay.

Balımdan qoy yesinlər,
Mənə: “Sağ ol!” desinlər.

## KƏPƏNƏK

Mənəm qanadlı çiçək,
Adım isə kəpənək.
Al-əlvan xallarım var.
Qızıl kimi parıldar.
Qanadımı açaram,
Budaq – budaq uçaram.
Yuvam, otağım ancaq
Olur yaşıl bir yarpaq,
Mənim dostumdur hər gül,
İncə telli göy sünbül.

Oynağımdır çöl, çəmən,
Məni tutmaq istəyən,
Ey mehriban uşaqlar,
Siz yaşayın bəxtiyar!
Mənim də bu dünyada
Bir başqa aləmim var…

Uşaq və dovşan

U ş a q: Dovşan, dovşan, a dovşan!
Qaçma dayan, a dovşan!
Qaçma səni sevəndən,
Can kimi istəyəndən.

D o v ş a n: Dura bilmərəm, dadaş,
Yanında var alabaş.
Xəbərdaram işindən,
Qurtarmaram dişindən

**Onlayn viktorina**

Abdulla Şaiqin yubileyi münasibətilə kitabxananın sosial şəbəkəsinə ədibin yaradıcılığı ilə bağlı uşaqlar üçün viktorina sualları yerləşdirmək olar. Viktorina uşaqların şairin yaradıcılığı haqqında bilgilərini müəyyən etmək üçün tətbiq olunur. Sualların cavablandırılması üçün 30 dəq vaxt verilir. Cavabları ən tez göndərən qalib elan olunur. Cavabları göndərərkən ad, soyad və əlaqə nömrəsi qeyd olunur.

**1.** Abdulla Şaiq neçənci ildə anadan olub?

A. 1922; B. 1901;C.1891;D. 1881*

**2.** Abdulla Şaiq harada anadan olmuşdur?

A. Bakı
B. Şamaxı
C. Tiflis*
D. Qazax

**3.** İlk kitabı neçənci ildə çapdan çıxıb?

A. 1910
B. 1911*
C. 1906
D. 1909

**4.** Aşağıdakı hansı cizgi filmin müəllifi Abdulla Şaiq deyil?

A. “Pıspıa xanım və Siçan bəy”
B. “Tülkü həccə gedir”
C. “Cırtdanın yeni sərgüzəşti”*
D. Heç birinin

**5.** Abdulla Şaiq hansı sənətin sahibidir?

A. Həkim
B. Ədəbi işçi
C. Mühəndis
D. Müəllim*

**6.** Abdulla Şaiq hansı fəxri ada layiq görülüb?

A. Xalq şairi
B. Əməkdar mədəniyyət işçisi
C. Əməkdar incəsənət xadimi*
D. Fəxri adı yoxdur

**7.** “...Qoymayırsan yatmağa..........” misrasının davamı necədir?

A. Qaçma, dayan, a dovşan
B. Mən quş olub uçaram
C. Ay qoşa buynuz keçi
D. Ay canı məstan xoruz*

**8.** Bakı şəhərində hansı teatr şairin adını daşıyır?

A. Akademik Dram teatrı
B. Kukla teatrı*
C. Gənc Tamaşaçılar teatrı
D. Musiqili Komediya teatrı

**9.** Aşağıdakı hansı kitabın bu il yubileyi deyil?

A. Yaxşı arxa; B.Tülkü, Qarğa, Hacıleylək;C.Tıq-tıq xanım

D. Tülkü və xoruz; F. Tülkü həccə gedir.*

**10.** Abdulla Şaiqin ilk şeiri hansıdır?

A. “Lay-lay” *
B. Bahar nəğməsi
C. Oyan, oğlum
D. Məktəbdə

**Cavablar :**

| | | | |
|---|---|---|---|
| 1. D | 4. C | 7. D | 10. A |
| 2. C | 5. D | 8. B | |

Elə sənətkarlar vardır ki, onların həyatı, şəxsiyyəti, ömür yolu, yaradıcılığı, fərdi xasiyyəti, ağlı, idrakı nə isə bütövü, tamı, ümumini, bir sözlə, mənsub olduğu xalqı, onun bütöv varlığını, psixologiyasını xatırladır, onun kiçicik bir hissəsini, yarısını təşkil edir. Belələri həm də mələk kimi təmiz, səmimi, saf və gözəl insan olurlar. Bu sifətləri sadaladıqca sanki fövrən bir ad yazılır: Abdulla Şaiq! Böyük şairimiz S.Vurğun «Səmimiyyət yolçusu» adlı şeirində bu xüsusiyyətləri tam mənası ilə poetikləşdirmişdir:

Şairim! Çaldığın bu telli sazdan,
Günəşli gündüzdən, çiçəkli yazdan,
Könül xumarlandı ay dönə-dönə,
Qəlbin vurğusunu say dönə-dönə!
Şaiqim! Şairlər içində təksən,
Təmiz vicdanınla gülsən, ipəksən.
Dilindən küsməmiş tanış da, yar da,
Səndən inciməmiş qarıncalar da!
Sən azad oğlusan azad ellərin!
Əməlin qurtuluş, varlığın sənət,
Yaşasın qardaşlıq, bir də məhəbbət!
İndi bir günəşin «zərrəsiyik biz»,
Var olsun birləşən dost əllərimiz!

## Ədəbiyyat siyahısı

**İnternetdə:**
http://clb.az/elektron/SHAIQ/index.htm

**Kitablar:**

Seçilmiş əsərləri / Abbas Səhhət, Abdulla Şaiq. - B. : Çaşıoğlu, 2006. - 336s.

Seçilmiş əsərləri: Üç cilddə. I cild. - B. : Avrasiya Press2005.- 496s.

Seçilmiş əsərləri: Üç cilddə II cild. - B.: AvrasiyaPress, 2005.- 568s.

Seçilmiş əsərləri: Üç cilddə. III cild.- B. : AvrasiyaPress, 2005.- 536s.

Ay pipiyi qan xoruz. - Hüseynov.- B.: Turan, 2002.- 14s.

Arazdan Turana.- B. : Nurlan, 2004.- 264 s.

Bağça. - Bakı : Altun Kitab, 2013. - 10 s.

İki qəhrəman.- B. : Araz, 2003.- 16 s.

Kiçik qəhrəman : hekayələr və təmsillər - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 227 s

Tıq-tıq xanım.- B. : CBS Polygraphic production, 2001.- 19 s.

Tülkü həccə gedir.- B. : CBS Polygraphic production, 2001.- 14 s.

Yaxşı arxa - Bakı : Renessans-A, 2017. - 28 s.

**Dövri mətbuatda və kitablarda:**


1. Şaiq Abdulla. Ana: şeir // Göy qurşağı.- 2009. - № 2.- S.3.
2. Şaiq Abdulla. Cöyərçin: şeir // Göyərçin.- 2008.- № 1.- S.5.
3. Şaiq Abdulla. Kiçik qəhrəman: hekayə // Savalan.- 2009.- 3-5 fevral.- S.3-8.
4. Şaiq Abdulla. İntiqamçı xoruz // Azərbaycan dramaturgiyası antologiyası. 4cilddə. C.1.- B.: Şərq-Qərb, 2007.- S.294-301.
5. Şaiq Abdulla. Məktub yetişmədi ; Göbələk ; Pirin kəraməti : hekayələr // Azərbaycan nəsri antologiyası. 5 cilddə. C.2.- B.: Şərq-Qərb, 2006.- S.220-223.
6. Şaiq Abdulla. Möhtərəm müəllimimiz Həsən bəy Zərdabinin vəfatına // Füyuzat. - 2009.- N 4(48).- S.5.
7. Şaiq Abdulla**.** Murad ; Usta Bəxtiyar ; Oyunçu bağalar : hekayələr // Azərbaycanuşaq ədəbiyyatı antologiyası. 3 cilddə. C.3.- B.: Öndər, 2005.- S.73-99.
8. Şaiq Abdulla. Sözün qiyməti // Savalan.- 2008.- 2-4 dekabr.- S.16.
9. Şaiq Abdulla. Təbiət və biz : Ətraf mühiti qorumağın yolu çoxdur // Azərbaycan. - 2009.- 18 noyabr.- N 258.- S.7.
10. Şaiq Abdulla. Uşaq ; Dovşan ; Keçi və s.: şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. C.2.- B.: Öndər, 2004.- S.69-91.

**Haqqında**

**Kitablarda və dövri mətbuatda:**


1. Baharlı M. Yazıçının yetirmələrindən və tədqiqatçılarından eşitdiklərim : Abdulla

Şaiq - 125 / M. Baharlı // Azərbaycan müəllimi.- 2006.- 21 aprel.- S.7.

2. Əlioğlu M. A.Şaiqin romantikası və romantik qəhrəmanları // Darıxan adamlar. 2 cilddə. I c.- B.: Təhsil, 2009.- S.170-184.

3. Əsgərli Ə. Bir günəşin zərrəsi : Abdulla Şaiq haqqında / Ə. Əsgərli // Ədəbiyyatqəzeti.- 2010.- 16 iyul.- N 33. - S.5.

4. İsmayıloğlu A. Abdulla Şaiq və ədəbi mühit / A. İsmayıloğlu // Ədəbiyyat qəzeti.- 2008.- 18 aprel.- S.2.

5. Mirzə Nizami. O, xalqının maariflənməsi üçün çox iş görmüşdür : Xalq yazıçısı Abdulla Şaiq haqqında nəvəsi Ülkərin xatirələri / N. Mirzə // Azərbaycan müəllimi. - 2008.- 4 aprel.- S.6.

6. Mirzəliyev Canalı. Bizim Abdulla Şaiqimiz vardı... / C. Mirzəliyev //Mədəniyyət.- 2008.- 14 avqust.- S.6.

**Milli ruh və mənəviyyatımıza işıq salan -Abdulla Şaiq**

**(**metodiki vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 20
Çapa imzalanmışdır: 03.03.2021
Tirajı: 100
Pulsuz.